səhvlərini təkrarladılar, onun pis hərəkətlərini həyatlarında tətbiq etdilər.

Emma Bovari ərə getməzdən əvvəl həm sevgi, həm ehtiras arzulayırdı. Lakin bütün bunları əyalət həkimində tapa bilmədi. Və ömrü boyu yeni sevgi həvəsi ilə yaşadı, yeni ehtirasları yaxına buraxdı. Əlbəttə, bütün bunlar həyat yoldaşından xəbərsiz edilirdi. Gənc qadının belə istəkləri təəssüf ki, Fransada gizli həyatlara rəvac verdi. Qadınlar ərlərini əlcək kimi dəyişdilər, kabarelər aşıb-daşdı. Hamısı da "Xanım Bovari" əsərinin ucbatından. Əlbəttə, cəmiyyətdə yaratdığı səs-küyə və götürülən nümunə tərzinə baxmayaraq, burada bir qələm sahibinin dahiliyi əsas götürülməlidir. Ümumiyyətlə, cəmiyyəti dəyişən və adamların taleyində öz izini




qoyan əsərlər az olub. Qustav Flober bunu bacarmışdı.

Məhz bu səbəbdən hakimiyyət dairələri romanı kifayət qədər qadağan etməyə çalışırdı. Köşklərdən yığışdırılmasına baxmayaraq, adamlar gizli yolla da olsa kitabı əldə edirdilər. İnanılmaz hadisə idi. Emma Bovarinin "Mənim məşuqum var" ifadəsi qızlar yataqxanasında müzakirə olunan mövzulardan olub. Qadın məclislərində bu ifadə tez-tez səslənib: "Mənim məşuqum var". Tənqidçilər söyləyir ki, Flober əsərin qəhrəmanı Emma Bovarinin qəlbinin necə qürub etməsini sonsuz incəliklə yaradıb. Bəlkə də yazıçı onun həyatını intiharla nəticələndirməsəydi, xanım Bovariyə maraq bu qədər olmayacaq, əksinə, şəxsiyyətinə nifrət ediləcəkdi. Hər halda tənqidçilər bu fikirdədir.

"Xanım Bovari" əsəri aldadıcı xarakter daşıyır. Müxtəlif yaşlarda o müxtəlif cür anlaşılır. Məsələn, çoxları belə hesab edir ki, romanı 17-18 yaşda oxuyarkən ancaq ehtiraslı sətirlər üzərində gedişlər olur. Gənclər yalnız belə sətirlərdən ehtiraslanır. Amma yaş artdıqca anlayırsan ki, Qustav Flober bir ərli qadının yad kişilərin çarpayısındakı sevgi səhnələrini tərənnüm etməyə çalışmayıb. O, əminliklə bu qərara gəlib ki, istənilən qaynar sevginin sonu faciə ilə nəticələnir və qürub edir. Əsərin qəhrəmanı Emma fiziki sevgi yaşadığından sonu faciə ilə bitməli idi. Mənəvi zövq yaşamayanların sonu Emmanın taleyini yaşayır. Solğunlaşır, əvvəlki təravətini itirir, məşuqlar başqa qadınların yanına qaçırlar. O, ümid edirdi ki, sevgisini qazanmaq üçün əldən-ayaqdan gedən kişilər maliyyə köməkliklərini əsirgəməyəcəklər. Lakin hamısı bir bəhanə ilə uzaqlaşır. Onda Emma anlayır ki, bu həyatda hər şey puçdur. O, aldanıb. Xəyallarında qurduğu sevgini axtarmaqda səhvə yol verib. Öz ərinə xəyanətdə günah iş tutub. Elə ona görə də ölüm yatağında ərindən üzr istəyir.

Qustav Floberin ölümündən neçə il keçəndən sonra Vatikan kilsəsi də "Xanım Bovari"ni qadağan olunmuş əsərlər siyahısına saldı. 1851-ci ildən 1856-cı ilə qədər yazılan əsərin müdafiəsində xeyli hüquqşünaslar iştirak etdi. Eləcə də tənqidçilərin yaxşı fikirləri cəmiyyətdəki təlatümü nəinki səngitdi, əksinə, daha da qızışdırdı. Tənqidçilər güman edirdilər ki, əsərin əsl məziyyətini ortaya qoymaqla oxucuları sakitləşdirəcəklər. Yuxarıda qeyd etdiyimiz kimi oxucuların yaş fərqi əsərə münasibəti tam aydın göstərirdi: həddi-buluğa çatmayanlar və yeniyetmələr əsərə yaxşı, 30 yaşı keçənlər isə tənqidi yanaşırdılar. Burada 30 yaşı keçən kişilər nəzərdə tutulur.

Beləliklə, 1856-cı ildə " La Revyu de Pari" jurnalında əsərin dərc olunması Qustav Floberin çətin günlərinin başlanması ilə nəticələndi. Ona mənəviyyatsız damğası vuruldu. Flober küçə və meydanda tək görünməzdi. Bir sözlə, təhlükəsizlik qaydalarına əməl edər, tək gəzməzdi. Hətta evinə gələrkən də qapı ətrafında dayanan naməlum adamları diqqətlə gözdən keçirər, sonra mənzilə daxil olarmış. Flober həm də tarixə bir əsər üzərində məhkəmənin qurulması ilə düşdü. 19-cu əsrdə ilk dəfə "Xanım Bovari" əsərinə görə keçirilən məhkəmə yazıçının xeyrinə qərar çıxardı. Əksəriyyət məhkəmənin cəmiyyətin mövqeyi ilə uzlaşacağını gözləsə də, proseslər tamam başqa istiqamətdə cərəyan etdi. Məhkəmənin qurulması ilə kitabın satışı daha da sürətləndi. Necə deyərlər, dəlinin yadına daş salan məhkəmə həm yazıçını, həm də "Xanım Bovari" romanını daha da məşhurlaşdırdı.

Qustav Flober uzun illər bəyan edib ki, Emma Bovarinin prototipi yoxdur. Hətta bir dəfə hirslənərək deyib ki, "Xanım Bovari mənəm". Gizlədib gizlətməməsindən asılı olmayaraq adamlar bunun Delfina olduğunu bildilər. İndi Fransada Delfina Delamarın uyuduğu qəbrin üstündə belə yazılıb: "Xanım Bovari".